# Ədəbi tənqiddə klassik bədii irsə münasibət

**Qızqayıt Süleymanova**
*Bakı Qızlar Universitetinin dosenti,*
*filologiya üzrə fəlsəfə doktoru*

**Rəyçilər:** filol.ü.e.d., prof. N.Ş. Şəmsizadə,
filol.ü.f.d., dos. İ.M. Məmmədli

**Açar sözlər:** tənqid, ədəbi proses, ədəbiyyat tarixi
**Ключевые слова:** критика, литературный процесс, история литературы
**Key words:** criticism, literary process, history of literature

20-ci illərdə ədəbiyyat tarixi kontekstində klassik bədii irsə münasibət prinsipləri hələ 1917-ci ildən başlayaraq keçmişdən qalma nə varsa, hər şeyi yeni cəmiyyət və onun mədəniyyəti üçün yararsız elan edən proletkultuçulara xalis proletar mədəniyyəti yaratmaq ideyası ilə çığırğan və dotələb şəkildə meydana atılmış vulqar marksist nəzəriyyəçilərə qarşı mübarizədə formalaşırdı. Bu zaman məsələn, «Füzulinin yaradıcılığını tədqiq etmək üçün ilk növbədə ədəbi-tarixi prosesin Füzulini yetirən mərhələsini öyrənmək vacib idi. Bu özü də növbəti problem diktə edirdi. Yəni ədəbi-tarixi prosesin mərhələ təsnifini vermək üçün həmin mərhələlərin hardan başlandığını, ədəbiyyatın tarixi təşəkkülü və mənşəyini müəyyənləşdirmək tələb olunurdu» (3, 95). Klassik bədii irsə münasibətdə ümumi, universal 20-30-cu illər konsepsiyası belə idi. Görkəmli komissar, inqilabçı, tənqidçi və nəzəriyyəçi M.Quliyev də özünün irs təlimini formalaşdırarkən bu vahid konsepsiyasının tələbələrini nəzərə almalı olurdu. Fəqət, bütün ümumi nəzəri təlimlər konkret fərdi münasibətlərə istinad edir. Belə fərdi özünəməxsusluqlar açılmadan, aydınlaşdırılmadan universal nəzəriyyələr absurd fikir toplumundan ibarət olub, son uca fəaliyyətsizliyə düçar olur. Məhz bu kontekstdə də M.Quliyevin klassik bədii irsə münasibətini səciyyələndirən konkret məqamlara nəzər salaq.

M.Quliyevin «Oktyabr və türk ədəbiyyatı» (1930) monoqrafiyası dahi qəlb şairi M.Füzulidən başlanır. 30-cu illərə qədərki möhtəşəm bir mərhələdə Azərbaycan ədəbiyyatının keçdiyi inkişaf yoluna nəzər salınır. Göründüyü kimi kitab ədəbiyyatımızın əsasən anadilli dövrünü əhatə edir. Mütəxəssislərin qeyd etdiyi kimi bu dövrdə ədəbiyyat tarixini İ.Nəsimidən, M.Füzulidən, «İslamiyyətin zühurundan» (İ.Hikmət), hətta M.P.Vaqifdən başlamaq ənənəsi mövcud idi. Görkəmli tədqiqatçı S.Mumtaz yazırdı: «Azərbaycan ədəbiyyatı yoxdur deyən naümidlər… biləcəklər ki, biz min iki yüz illik möhtəşəm bir ədəbiyyata (4, 327).

Dövrünün bir sıra ən müasir tədqiqatlarına, o cümlədən S.Mumtazın araşdırmalarına istinad edərək tənqidçi və filosof Məmmədkazım Ələkbərli Şura yazıçılarının I Ümumittifaq qurultayına (1934) «Azərbaycan ədəbiyyatı» adlı məruzəsində yazılı Azərbaycan ədəbiyyatının tarixinin VIII əsrdə Harun Ər rəşidin arvadı Zübeydə Xatundan başlamaq fikrini irəli sürürdü. Fəqət, 20-30-cu illərdə Azərbaycan ədəbiyyatının ilk böyük dühası, mərhələ yaradan şəxsiyyəti olaraq M.Füzuli qəbul olunurdu ki, M.Quliyevin kitabında da biz bunu görürük. Bu, əlbəttə, ilk növbədə yazılı Azərbyacan ədəbiyyatının orta əsrlərdən əvvəlki çağlarının ədəbi abidə və şəxsiyyətlərinin öyrənilməməsindən, ikincisi isə fars dilində yaranmış zəngin bədii irsin «fars ədəbiyyatı» adlandırılmasından irəli gəlirdi. «M.Quliyevin ədəbiyyat tarixi nəzəriyyəsində orijinal cəhət bununla bağlıdır ki, o Azərbaycan ədəbiyyatını

tarixi-xronoloji ardıcıllıqla izləmir, ona hər bir dövrün ən başlıca, aparıcı estetik konsepsiya və fəlsəfi nəzəriyyələri kontekstində nəzər salır… Beləliklə, Nəsimidən və Füzulidən tutmuş ən yeni dövrə – XIX əsrə qədərki dövrün ən qüdrətli cərəyanı – sufizm seçilir» (5, 64-67). M.Quliyev nəzəriyyəçi təfəkkürünə malik idi, ona görə də klassik irsin ədəbi-nəzəri dəyərlənməsi onu daha çox məşğul edirdi. O yazırdı: «Öz ideologiyası baxımından Nəsimi sufi-mistik idi. Qüdrətli güc və inam sahibi olan Nəsimi öz ideya və görüşlərini cəsarətlə təbliğ edirdi. Nəsimi «Allah məndədir və təbiətin bütün hadisələrindədir» deyirdi». Beləliklə, M.Quliyev Nəsimini hər şeydən öncə bir filosof, sufi-mistik kimi qəbul edir, onun görüşlərində sufizmin daha yeni mərhələsini — hürufizmi ayırmaq istəmirdi.

M.Quliyev deyirdi ki, «bütün mədəni Şərqdə məşhur olan» bir şair kimi, M.Füzuli poeziyası onun ana dilində oxuyan hər bir kəs üçün doğmadır. Tənqidçiyə görə M.Füzuli poeziyasının sehri onun dərin xəlqiliyindədir. O, bu dahi qəlb şairinə tarixi nöqteyi-nəzərdən yanaşır, onun ecazkar bədiiliyini kifayət qədər görə və qiymətləndirə bilmirdi. Çünki, M.Quliyev marksist tənqidçi idi. O, bədii formanı yüksəltməyi formalizm kimi qəbul edirdi. Klassik bədii irsə öz dövrünün gündəlik, ötəri inqilabi tələbləri ilə yanaşı M.Quliyev «Yeni ədəbiyyat, yeni məndəricə ilə köhnə şəkil, köhnə qəlib kifayət deyildir» deyərək bütün Şərq, o cümlədən Azərbaycan klassik poeziyasına misilsiz bəşəri nümunələr bəxş etmiş heca və əruz vəznlərinin yeni ədəbi mənafelər baxımından köhnəlmiş hesab edir, yararsız sayırdı: «Əruz sufi formadır. XIX əsrə qədərki bütün klassik ədəbiyyat əruzu tətbiq etmişdir. Füzuli, Nəsimi, Sabir, Hacı Seyid Əzim Şirvani, Hadi əruzun tərəfdarıdırlar. Bu köhnə şeir forması fars poeziyasına məxsusdur. Fars dilinin fonetikasına, ritminə uyğundur. Müasir şairlər bu formanı tətbiq edərkən fars və ərəb sözlərindən istifadə məcburiyyətində qalırlar. Əruz həmçinin türk dilinin farslaşdırılmasını da təmin edir. Köhnə ibtidai forma olan heca türk dilinin ritminə uyğundur. Vaqif öz poeziyasını əsasən bu formada yaratmışdır. Aşıqlar, xalq nəğməkarları, xalq şairləri öz nəğmələrini, öz şeirlərini yaradarkən bu formaya müraciət edirdilər. Heca köhnəlmişdir; o, poeziyaya monotonluq, yekrənglik gəti-rir. O daha az ritmik və musiqilidir. Biz bu ibtidai sufi mövqelərdə dayana bilmərik. Mübarizənin, yüksəlişin, ilhamın, inqilabi ehtirasların yeni poeziyasını əruz və hecanın köhnə çərçivələrinə sığışdırmaq qeyri-mümkündür. Yeni formalar axtarmaq lazımdır» (6, 174-175).

Fikrimizcə, belə münasibəti təkcə proletarkultçuluq təzahürü kimi izah etmək olmaz. Burada rus marksist tənqidinin Şərq ənənələrinin yeni ədəbiyyat və sənət üçün yararsızlığı barəsində 20-30-cu illərdə irəli sürdüyü yanlış, saxta və birtərəfli konsepsiyanın da mühüm rolu var idi. Təkcə M.Quliyev deyil, o dövrün bir çox tənqidçilərinin əsərlərində belə mülahizələrə rast gəlmək olar. Məsələn, dövrün qüdrətli tənqidçisi Ə.Nazim «Mayakovskini öyrənək» məqaləsində yazırdı: «Bügünkü şeirimizdə ilk sırada böyük Puşkin-Mayakovski şerindən öyrənək şüarına zidd gedənlər şüurlumu, şüursuzmu bizi Şərq mistik ədəbiyyat meşəsinin meymunlarına çevirməkdən başqa bir iş görmürlər» (7, 6).

M.Füzulinin eşq fəlsəfəsini «ardıcıl idealizm»in təzahürü kimi izah edən M.Quliyev onun yaradıcılığının orta əsrlər elmi-fəlsəfi təfəkkürü zəminində formalaşdığını, başqa sözlə intibah səviyyəsini görə bilmişdi: «Füzulinin qəzəlləri pessimizmlə yoğurulmuşdur; şair həyatın boşluğundan və faniliyindən şikayətlənir. Şair-filosof; onu bilmək kifayətdir ki, heç nəyi bilmək olmaz» deyir və epoxasının bütün səbatsızlığı bunda ifadə olunur. Füzuli zəmanəsinin ən qabaqcıl və mədəni adamı idi. Fəlsəfə və ictimai elmlər sahəsindəki bütün nailiyyətlər ona məlum idi. Onun hər şerri misilsiz fikir deməkdir. Şairin hər bir obrazında geniş həyati bilik, psixologiya, təbiət hadisələrinin dərin təhlili meydana çıxır» (8, 50). Tənqidçinin M.Füzuli haqqında bu qənaəti konseptual səciyyə daşıyır və onunla razılaşmamaq olmaz. Fəqət, onun

Nizaminin Azərbaycanda yaşamış fars şairi hesab etməsi, «Qədim türk ədəbiyyatı bir neçə fars şairinin əsarətində olmuşdur» (Göstərilən kitabı, s. 9) deməsi ilə də razılaşmaq olmaz.

M.Quliyevin Şərqdə iftixara layiq ədəbi-tarixi və fəlsəfi fikir hərəkatı olan sufizmlə bağlı mülahizələri diqqətəlayiqdir. Sufizmi vahid fəlsəfi fikir hərəkatı kimi təhlil edən M.Quliyev onun tərki-bindəki müxtəlifliyi də sezə bilmişdi: «Bəzi müsəlman ölkələrində sufizm xalis mistika, digərlərində isə hind buddizmi və neoplotonizmə yaxın olan panteistik teosofiya ilə birləşirdi» 64. Bu baxımdan ümumən 20-30-cu illər tənqidinin Şərqin böyük materialist filosofu Ömər Xəyyama ardıcıl münasibəti maraq doğurur. Bu dövrü Xəyyam bir neçə baxımdan-materializmi, dinə münasibəti və intibah ideyaları ilə maraqlandırırdı. «Klassik İran Şeir və elminin bu dahi və bəşəri nümayəndəsi öz vaxtının bütün fikri və ictimai çərçivələrini qırıb yüksək bir fəlsəfi zirvəyə qalxaraq, mütləq həqiqət sayılan islam ehkamlarının iç üzünü görmüş və əsrlərcə irəliyə baxa bilmişdi. Xəyyam XI əsrin sonlarında, XII əsrin başlanğıcında yaşamışdır. Bu ərəb və islam istilası ilə məhv olan qədim İran mədəniyyəti yerinə yeni ictimai münasibətlər və yunan-ərəb elmi üzərində qurulan İran mədəniyyətinin renessans dövrüdür… Şərq renessansının ən cəsur siması Firdovsidən sonra Ömər Xəyyamdır. Xəyyam Şərq renessansının böyük Dantesidir» (9, 351).

Eyni təhlil və qiymət üsulunu M.Quliyevin əsərlərində də müşahidə edirik: «Dinlərin heç biri Ömər Xəyyamı təmin etmir, Tanrını dünyanı düzgün qurmamaqda günahlandırır, islam doğmalarına qarşı çıxır, alturizm, ruhi sakitlik və mənəvi təmizlik təbliğ edir. Bu dərin müdrik öz görüşlərində müəyyən qədər materializmə yaxınlaşmağa çalışır» (10, 5).

Şərq intibahının əsasında müdrik ərəb xəlifələrinin antik yunan fəlsəfəsindən ərəb dilinə tərcümə və şərh etdirdikləri kitablar dayanırdı.

Mustafa Quliyevin klassik bədii irsə, ədəbiyyat tarixinə münasibətdə təqdim və təqdir etdiyi növbəti böyük ədəbi-tarixi fikir cərəyanı realizm idi. O zaman ədəbi-nəzəri cərəyanlar və bədii metodlara müraciətin xarakteri müxtəlif idi. Bu hər şeydən öncə XX əsr Azərbaycan ədəbi-tarixi prosesinin səciyyəsi ilə bağlı idi. XIX əsrin önlərindən maarifçi istiqamətdə inkişaf etmiş milli realizm XX əsrdə tənqidi realizm mərhələsi yaşayır. Digər tərəfdən, birinci xalq inqilabı, dünya müharibəsi və milli kapitalizmin inkişafının təsiri ilə XX əsr Azərbaycan ədəbiyyatında romantizm ədəbi cərəyanı təşəkkül tapır. Marksist tənqidin romantizmə ögey münasibəti bir tərəfdən o zaman Ümumittifaq Proletar Yazıçıları Cəmiyyətinin rəhbəri A.Fadeyevin irəli sürdüyü «Doloy Şiller!» (11, 68) — «Rədd olsun romantizm!» şüarı ilə bağlı idisə, digər tərəfdən də o zaman ədəbi-ictimai mühitdə həlledici nəzəriyyəçi olan komissar və tənqidçi, siyasi xadim A.V.Lunaçarskinin belə bir fikrində gəlirdi: «Fəlsəfədə materializm — incəsənətdə realizm. Bunlar bir-biri ilə bağlı idi» (yenə orada). Belə mülahizələr özlüyündə sonralar ədəbi mühitdə həlledici rol oynamış «realizm-materializm-romantizm-idealizm» münasibətinin formalaşması ilə nəticələndi ki, bu da sənətin, o cümlədən söz sənətinin həqiqi bədii-estetik mahiyyətini tarixən doğru və obyektiv müəyyənləşdirmək baxımından ciddi əngəllər törətdi.

**Məqalənin aktuallığı.** Ədəbi keçmişdə, klassik bədii irsə münasibət 20-30-cu illər tənqidi və ədəbiyyatşünaslığının ən mürəkkəb, ziddiyyətli problemlərindən idi. Bu problemə münasibətdə tənqidin nəzəri-metodoloji gücsüzlüyü ortaya çıxırdı. Məsələ burasında idi ki, XX əsrin önlərindən — F.Köçərli, A.Sur, S.Hüseyn kimi müəlliflərdən tutmuş repressiya illərinə qədər ədəbi tənqid və nəzəri fikir bu problemlə məşğul ola-ola formalaşır, nəzəri-tarixi cəhətdən möhkəmlənirdi. Həm dövrün ədəbi tənqidi fikrini formalaşdıran məqalə, sənəd və materiallar, həm də yeni bu yöndə aparılmış nüfuzlu tədqiqatlar göstərir ki, klassik irsə münasibət ədəbiyyat tarixini yaratmaq ideyasından güc alırdı (1).

**Məqalənin elmi yeniliyi.** Ədəbiyyatın həm ayrı-ayrı dövr və mərhələlərini səciyyələndirmək, ədəbi cərəyan və bədii metodları izah etmək, həm də ayrı-ayrı klassiklərin bütövlükdə tarixi haqqında elmi təsəvvür yaradılmalı idi. M.Quliyev kimi tənqidçi və ədəbiyyatşünasları bu ağır və çətin işə girişəndə əldə yalnız F.Köçərli və A.Surun ədəbiyyat tarixləri ilə bağlı çox da populyar olmayan təcrübələr var idi. Nəzərə alsaq ki, həm F.Köçərlinin iki cildli «Azərbaycan ədəbiyyatı tarixi materialları», həm də A.Surun «Türk ədəbiyyatına bir nəzər» əsəri 1908-ci ildə yazılıb çap üzü görməmişdi, onda ədəbiyyat tarixçiliyi ənənəsi olaraq yalnız təkzirə və risalələrdən bəhs etmək olar. Ədəbiyyat tarixi yaratmaq isə əslində bu sahədə elm yaratmaq idi. Çünki «Ədəbiyyat tarixinin tədqiq dərəcəsi bütövlükdə ədəbiyyatşünaslığın inkişaf səviyyəsini əks etdirir. Bu ən çətin tədqiqat növü ayrı-ayrı monoqrafik araşdırmaların nailiyyətlərini vəhdətdə əlaqələndirməyə imkan verir. Həmçinin xüsusi metodoloji dəqiqlik və ardıcıllıq tələb edir» (2. 385).

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar, eləcə də ədəbi tənqidçilər bəhrələnə bilərlər.

## Ədəbiyyat

1. Talıbzadə K. Azərbaycan ədəbi tənqidinin tarixi. Bakı: Maarif, 1984.
2. Şəmsizadə N. Azərbaycan ədəbiyyatşünaslığı. Bakı: Ozan, 1997.
3. Qəhrəmanlı N. Milli ədəbiyyat tarixçiliyi: genezis, inkişaf, dövrləşdirmə problemləri. Bakı: Qartal, 1997.
4. Кулешов В.И. Принципы постоения общего курса русской литера-туры XIX века. «Советское литературоведения за пятьдесять лет», М.: Изд.МГУ, 1967.
5. Şəmsizadə N. Azərbaycan ədəbiyyatşünaslığı. Bakı: Ozan, 1997, s.95.
6. Salman Mumtaz. Azərbaycan ədəbiyyatının qaynaqları. Bakı: Yazıçı, 1986.
7. Ələkbərli M. Azərbaycan ədəbiyyatı. Bakı: Azərnəşr, 1935.
8.Şəmsizadə N. Azərbaycanın ilk qadın şairi (Bir mübahisənin taleyi) // Ulduz, 1987, № 3
9. Şəmsizadə N. Azərbaycan ədəbiyyatşünaslığı. Bakı: Ozan, 1997, s. 174-175.
10. Кулиев М. Октябрь и тюркская литература. Баку,: Аз.ГНИИ, 1930.
11. Кулиев М. Октябрь и тюркская литература. Бакы, АЗ.ГНИИ, 1930, с.50.
12. Əli Nazim. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1979.
13. Кулиев М. Октябрь и тюркская литература. Бакы, АЗ.ГНИИ, 1930, с.5.
14. Кулиев М. Октябрь и тюркская литература. Бакы, АЗ.ГНИИ, 1930, с.68.

**Г. Сулейманова**

## Отношение к классическому художественному наследию в литературном критики

## Резюме

В литературном прошлом отношение к классическому художественному наследию было одной из самых сложных и противоречивых проблем критики и литературной

критики 20-30-х годов. Появилась теоретико-методологическая слабость критики перед лицом этой проблемы.

**G. Suleymanova**

## Classic attitude to art heritage in the literary criticism


## Summary

In the literary past, the attitude to the classical artistic heritage was one of the most complex and contradictory problems of criticism and literary criticism of the 1920s and 1930s. There was a theoretical and methodological weakness of criticism in the face of this problem.


**Redaksiyaya daxil olub:** 26.09.2018